# Ünvan dəyişsə də, ad dəyişməyib

**...Hər dəfə yeni səfər ərəfəsində özümü axtarışa çıxan və axtardığını tapacağına böyük ümidlər bəsləyən arxeoloqlar və ya səyyahlar kimi hiss edirəm. İlk bahar ovqatlı bir gündə Füzuli şəhər İH Nümayəndəsi, xətri əziz Vidadi müəllim Tağıyevlə birlikdə çıxdığımız bu səfər zamanı da həmin həyəcanlı hissləri keçirirdim. Sevimli paytaxtımızın parlaqlığı, cazibədarlığı günbəgün daha da artan iri yaşayış peyklərindən olan Mehdiabad qəsəbəsinə doğru uzanan ətrafı gözoxşayan gül-çiçəyə bürünmüş asfalt yolla irəliləyirik. Bu günəşli yaz səhərində yolun kənarındakı elektron lövhədə Ümummilli liderimiz Heydər Əliyevin doğma Azərbaycanımızın daha nurlu sabahı barədə əks olunan hikmətli bir kəlamı ürəyimdə aşağıdakı misraların yaranmasına təkan verir:**

**...Paklıqdan, haqdan yanır**
**Köksündəki od-ocaq,**
**Sevənlərin üzünə**
**Qapısı daim açıq**
**Zinyətdir yer üzünə**
**Bu sehrli qalacıq**
**Üfüqləri qızarır**
**Dan yerində, odur bax!**
**Yeni səhər açılır**
**Daha parlaq, ağappaq**
**Ulu öndər demişkən:**
**-"Azərbaycan dünyaya**
**Günəş kimi doğacaq!"**

Nəhayət üz tutduğumuz ünvana - Abşeron rayonu ərazisində yerləşən Mehdiabad qəsəbəsində məcburi köçkünlərin yaşadığı iki hissədən ibarət Gənclər və Qarant şəhərciklərinə çatırıq.Qeyd edim ki,bura səfər yoldaşım Vidadi müəllimin həmyerlilərimizlə ünsiyyətdə olmaq üçün tez-tez üz tutduğu məkanlardan biri olduğu üçün əlavə bələdçiyə ehtiyacımız yoxdur.

Vidadi müəllimlə birlikdə hər iki şəhərciklə ümumi tanışlıqdan sonra "Qarant şəhərciyi"ndə yerləşən 1 saylı Mənzil İstismar Sahəsinin üzərində üç rəngli dövlət bayrağımız dalğalanan inzibati binasına daxil oluruq. Sahə rəisi, həmyerlimiz, ali təhsilli inşaatçı mühəndis Səfa Quliyevlə görüşüb xoş arzularımızı bölüşürük. Cənab S.Quliyev gəlişimizin məqsədini bilərək buradakı şəhərciklər və müvəqqəti məskunlaşan Füzuli rayonundan olan məcburi köçkünlər barədə bizə geniş məlumat verir.

Öyrənirik ki, 2011-ci ildə istifadəyə verilən, buradakı 8000 nəfər əhalinin yaşadığı 28 ədəd binanın 6 mərtəbədən ibarət olmaqla 17-si "Gənclər şəhərciyi"ndə, 7 mərtəbəli 11 bina isə "Qarant şəhərciyi"ndə yerləşir. Hər iki şəhərcikdə əsasən Bakının Ş.İ.Xətai, N.Nərimanov, Səbail və Yasamal rayonları ərazilərindən köçürülmüş məcburi köçkünlər yaşayır. "Gənclər şəhərciyi"ndə 4 orta məktəb, bir musiqi məktəbi, "Qrant şəhərciyi"ndə isə 3 orta məktəb fəaliyyət göstərir.

Buradakı 2 şəhərcikdə Füzuli rayonundan olan 362 ailə, 1015 nəfər sakin məskunlaşmışdır. Onların yaşayış şəraiti ilə maraqlanarkən məlum olur ki, buradakı mərkəzi istilik, işıqlandırma, su, kanalizasiya sistemləri yaxşı işləyir. Bununla yanaşı aradan 5 il keçməsinə baxmayaraq belə bir iri yaşayış kompleksində bu günədək ən vacib xidmət sahələri və mərkəzləri olan poliknika, uşaq bağçası, mədəniyyət evi, kitabxana, klub, telefon qovşağı, idman sarayı, istirahət mərkəzi, park və s. olmaması burada yaşayan bütün əhalinin, o cümlədən füzulilərin haqlı narazılığına səbəb olmuşdur.

MİS-də Füzuli rayonundan olan və burada yaşayan 6 nəfər şəxs işlə təmin olunmuşlar. Onlardan biri ilə, burada nəzarətçi işləyən Divanallar kənd sakini İmanov Adil Məhərrəm oğlu ilə görüşüb söhbət edirik. Onların ailəsindən 2 nəfər-bacısı və qardaşı işğal zamanı, son anda kənddən çıxarkən şəxsi avtomobillərində minaya düşərək şəhid, 2 qardaşı isə əlil olmuşdur. Ailələrinin düçar olduğu faciə nə qədər sarsıdıcı olsa da 5 nəfər ailə üzvləri ilə birlikdə bu gün "Gənclər şəhərciyi"ndə məskunlaşan və nəzarətçi işləyən Adilin ölkəmizin Ali Nəzarətçisi, Ali Baş Komandanı möhtərəm prezidentimiz İlham Əliyev cənablarının apardığı məqsədyönlü, uğurlu siyasət nəticəsində haqq işimizin tezliklə qalib gələcəyinə inamı sonsuzdur. Bunu Adilin sözləri də sübut edir: -Artıq xain düşmənlərimiz də, onların havadarları da Ali Baş Komandanımızın qətiyyətinə, qüdrətli milli



Ordumuzun gücünə çox yaxşı bələddirlər. Onlar indidən məğlub durumdadırlar...

Görüşüb söhbətləşdiyimiz - özləri burada, ürəkləri isə daim doğulduqları sevimli məkanda olan bütün yurddaşlarımız güvənc yerimiz olan Milli Ordumuzun son günlər erməni təxribatının qarşısını alarkən keçirilən əməliyyatlar zamanı göstərdiyi döyüş şücaətini bu hadisələr zamanı şəhid olanlarımızın ruhlarına dualar oxuyaraq qürur hissi keçirə-keçirə alqışladılar. Xüsusilə gənclərimiz səbrlərinin tükəndiyini, quduz düşmənlə layiqli intiqam alanlarımızın sıralarına tələsdiklərini bildirdilər.

Qəsəbədə Füzuli rayonundan olan 33 şəhid ailəsi yaşayır. Bunlardan 17-si "Gənclər şəhərciyi"ndə,16-sı isə "Qarant şəhərciyi"ndə məskunlaşmışdır. Gecəgözlü kəndindən şəhid oğul atası Əliyev Front Talıb oğlu başda olmaqla 3 ailə "Gənclər şəhərciyi"ndəki 12 saylı binada ailə tərkibinə uyğun oplaraq 2-3 otaqlı mənzillərlə təmin olunmuşdur.

"Qarant şəhərciyi"ndəki bina-10, mənzil 30-da yaşayan Ramil İmanov Füzuli rayonu uğurunda gedən ağır döyüşlərdə əlil olub, 2-ci qrup Qarbağ müharibəsi veteranıdır. Ailəsi 4 otaqlı mənzillə təmin olunub. Söhbət zamanı Ramil burada müvəqqəti məskunlaşan bütün həmyerliləri adından ölkəmizdə ürəkaçan nailiyyətlər və ilk növbədə icitmai-siyasi sabitlik üçün Respublika prezidenti İlham Əliyev cənablarına, doğma rayonumuzda uğurla həyata keçirilən, onların qəlbində fərəh doğuran böyük quruculuq, abadlıq, kənd təsərrüfatı işlərinin təşkilinə, vaxtaşırı onlarla şəxsən görüşə gələn, onların vəziyyəti ilə tanış olmaq üçün öz nümayəndələrini göndərən Rayon İcra Hakimiyyətinin başçısı cənab Alı Alıyevə göstərilən ardıcıl diqqət və qayğıya görə dərin minnətdarlığını bildirir.

Yeri gəlmişkən həmin qayğının parlaq nümunələrindən biri kimi qeyd etmək yerinə düşər ki, Alı müəllim müavinlərindən biri kimi ailə üzvləri ilə birlikdə "Qarant şəhərciyi"ndə məskunlaşan Kəmalə xanım Məmmədovaya etimad göstərmişdir. Nəticədə Kəmalə xanım burada onunla yanaşı yaşayan vətəndaşlarımızı düşündürən, narahat edən bir çox vacib məsələlərin operativ qaydada öyrənilib həll olunmasına səy göstərir.

Füzulilərin çoxunun yaxşı tanıdığı, bir vaxtlar RİH-də axşamlar gözətçi işləyib gündüzlər odlu kürəsində qızartdığı dəmiri döyüb istədiyi hala salan, bu günsə "Qarant şəhərciyi"ndəki 81-ci binanın hər gün güc-bəla ilə qalxdığı 6-cı mərtəbəsində sığınacaq tapan 86 yaşlı tənha qoca olan Aydın kişini taleyi dəmir kimi döyərək istədiyi hala salmışdır. Görüşümüz zamanı kövrələ-kövrələ - "ölürəm yurdumda ölməkdən ötrü" - deyən Aydın kişinin 6-cı mərtəbədəki mənzili Vidadi müəllimin xahişi ilə həmin gün 1-ci mərtəbə yerləşən mənzillə əvəz edildi. Aydın kişiyə və onun kimi düşünənlərə Alı müəllimin yaxın günlərdə Bakı şəhərində Novruz bayramı münasibətilə keçirilən yığıncaqda səmimiyyətlə dediyi- "Füzuli üçün bərk darıxanlara rayonumuzda hər cür şərait yaratmağa hazırıq" - sözlərini xatırlatdıq.

Gənclər şəhərciyində yerləşən Füzuli rayon 1 saylı tam orta və Füzuli rayon Şəkərcik kənd uşaq musiqi məktəblərinin bina şəraiti və fəaliyyətləri ilə maraqlandıq. Füzuli rayon 1 saylı tam orta məktəb 1993-cü ildən N.Nərimanov rayonunda Dəmiryol texnikumunun binası nəzdində fəaliyyətə başalayıb. 2012-ci ilin sentyabr ayından Respublika prezidentinin müvafiq sərəncamına əsasən bu şəhərciyə köçürülərək 12-ci binanın 50,79 və 81 saylı uyğunlaşdırılmış mənzillərində öz fəaliyyətini davam etdirir. 1993-cü ilin sentyabr ayından Rafiq Səfərov bu məktəbə direktor təyin edilib. Rafiq müəllim qabaqcıl maarif xadimidir, fəal işlərinə görə dəfələrlə müxtəlif təşkilatlar tərəfindən fəxri fərmanlara, diplom və təşəkkürnamələrə layiq görülüb. Direktor məktəbin fəaliyyəti barədə deyir:

-Zamanın yüksək tələblərinə uyğun olaraq başlıca məqsədimiz mövcud çətinliklərə baxmayaraq təhsilin keyfiyyətinin yüksəldilməsi, ölkəmizin gələcək inkişafı və tərəqqisini təmin edəcək yüksək intellektual səviyyəli, elmi dünyagörüşlü, müstəqil düşünmək, yaradıcı fəaliyyət göstərmək qabiliyyətinə malik olan gənc nəslin yetişdirilməsindən ibarətdir. Bu baxımdan hazırda 22 sinif komplektində 318 nəfər şagirdin (hamısı burada yaşayır - M.Q) təhsil aldığı məktəbimizin 48 nəfərdən ibarət pedaqoji kollektivi təhsil islahatından irəli gələn vəzifələri yüksək səy və bacarıqla həyata keçirir. İxtisaslı kadrlarla tam təmin olunmuş məktəbimizdə 1-8-ci siniflərdə dərslər yeni tədris proqramına uyğun keçirilir. 2014-2015-ci tədris ilində Respublikamızın müxtəlif ali məktəblərinə 12 nəfər, son üç ildə 40 nəfərə yaxın şagirdlərimiz qəbul olublar. Məktəbimizin 10 B sinif şagirdi Həsənova Lətafət Natiq qızı "Pətək" İB-nin təşkil etdiyi sərgi-müsabiqəsində "Ən yaxşı rəsm və ya əl işi" nominasiyası üzrə 2-ci yerə layiq görülmüş və 120 manat pul mükafatı almışdır. Həmin sinfin şagirdi Xankişiyev Cavidan Qaçay oğlu tarix fənni üzrə rayon turunun qalibi olmuş və respublika turunda iştirak etmişdir. Şagirdlərimizdən 9-cu sinif şagirdləri Əliyev Bəhruz Tərlan oğlu, Əliyev Ənsay Elnur qızı, 11-ci sinif şagirdləri Əliyeva Təhminə Hikmət qızı, Əliyeva Nigar Yaşar qızı, Xəlilova Aytəkin İlqar qızı, Əşrəfli Nərmin Mübariz qızı əla qiymətlərlə təhsil alırlar. İdmançılarımızdan 7-ci sinif şagirdi Ülviyyə Bayramova Cüdo üzrə keçirilən beynəlxalq yarışda 1-ci yerə çıxaraq diplom almışdır. Nizami Məmmədli idmanın həmin növü üzrə respublika yarışında iştirak etmiş, fəxri-fərman almışdır. 11-ci sinif şagirdi Elman Aslanov isə "Qarabağ" futbol klubunun tərkibində çıxış edir.

Rafiq müəllim razılıq hissiylə qeyd etdi ki, direktor müavini Şəhla Quliyeva, kimya müəllimi Lalə Məmmədova, ədəbiyyat müəllimi Atlas Zeynalova, sinif müəllimləri Elnarə Mehbalıyeva, Gülxar Ələkbərova, riyaziyyat müəllimi Arzu Hüseynova, tarix müəllimi Aytən Aliyeva və b. məktəbimizin adının yüksəldilməsi üçün əzmlə çalışırlar. Rafiq müəllim kollektivin ciddi narahatlığına səbəb olan, böyük ehtiyac duyulan vacib bir məsələdən də danışdı. Təməli 2015-ci ildə qoyulan, tikinti işləri müəyyən qədər görüldükdən sonra, naməlum səbəbdən dayandırılan orta məktəb binasının inşasının yada düşməməsinin təəssüf hissi doğurduğunu bildirir.

Füzuli rayon Şəkərcik kənd uşaq musiqi məktəbi 1991-ci ildə Füzuli şəhərində fəaliyyətə başalayıb. 1993-95-ci illərdə Saatlı rayonu ərazisində yerləşən çadır şəhərciyində, 1995-ci ildən 2015-ci ilə qədər Bakı şəhər Dərnəgül 9 saylı Peşə litseyində şagirdlərə musiqi biliyi verib. 2015-ci ilin sentyabr ayından "Gənclər şəhərciyi"ndəki 4-cü binanın 1-ci mərtəbəsində səmərəli fəaliyyətini davam etdirir. Məktəbin açıldığı gündən direktoru ali musiqi ixtisası təhsilli Baxış Alik Ağabala oğludur.

Haşiyə: Yeri gəlmişkən qəzetimizin oxucuları üçün maraqlı olacaq bir faktı da qeyd edək ki, məktəb direktoru həm də Əli Baxış imzası ilə 200-ə yaxın mahnının müəllifidir.

Baxış müəllim musiqi məktəbinin fəaliyyəti, uğurları barədə bizə ətraflı məlumat verir:

-Fəxrlə deyə bilərəm ki, çətinliklərə baxmayaraq məktəbimizin əvvəlki illərdə də, indi də ürəkaçan nailiyyətləri çoxdur. Bu gün kollektivimizdə çalışan 57 nəfər ali və orta ixtisas təhsilli müəllimlərimiz, valideynləriylə birlikdə şəhərcikdə yaşayan 185 nəfər şagirdə insan ruhuna qol-qanad verən incəsənət elminin, ecazkar musiqi sənətinin incəliklərini öyrədirlər. Məktəbimizdəki 16 sinif otağında şagirdlərə fortepiano, tar, qarmon, nağara, xanəndəlik, kamança ixtisasları üzrə dərslər keçirilir. Qabaqcıl müəllimlərimizdən xanəndəlik şöbəsi üzrə respublikamızın tanınmmış muğam ifaçısı Təşkilat Nəsirov, gözəl xanəndə Zeynəb Quliyeva, tar şöbəsi üzrə Mübariz Əliheydərov, Azər Əliyev, Hamlet İsmayılov, fortepiano şöbəsi üzrə Yeganə Şirinova, Aynurə Surxayeva və b. adlarını fəxrlə çəkmək olar. Məktəbimizin yetirmələrindən populyar estrada mahnıları ifaçısı Zamiq Hüseynov, bizim məktəbi bitirib orta ixtisas musiqi məktəbinə qəbul olaraq hazırda kollektivimizlə çiyin-çiyinə çalışan Gültəkin Eminli öz musiqi təhsili ocaqları ilə həmişə öyünürlər. Yeri gəlmişkən, fərəh hissiylə qeyd etmək olar ki, xanəndəlik üzrə 1-ci Respublika mesabiqəsinin laureatı, xalq mahnıları və muğamlarımızın mahir ifaçısı Qoçaq Əskərov da bu məktəbdə müəllim işləmiş, Konservatoriyada təhsil almağa da bizim məktəbdən göndərilmişdir. Gözəl ənənələrimiz davam edi. Əlaçı, istedadlı şagirdlərimizdən xanəndəlik ixtisası üzrə Kənan Zamanov, Rəsul Quliye, tar ixtisası üzrə Amil Hüseynzadə Respublikamızda keçirilən müxtəlif müsabiqələrdə uğur qazanmışlar...

Baxış müəllim iki şəhərciyin vahid musiqili ürəyi sayılan bu məktəbdəki şirin söhbətini tar sinfinin şagirdi Amilin məharətlə ifa etdiyi "Segah"ın sehirli sədaları altında Fəxrəddin Qarabağlının "Füzulim mənim"seiri ilə tamamlayır:

**..."Məngələn ata"ya Man gələn olsun,**
**Şöhrət gələn olsun,şan gələn olsun!**
**Odur bax qızarır dan-gələn olsun,**
**Qələbə gətirsin qoy ilim mənim-**
**Ümidim,pənahım-Füzulim mənim!**

**...Yurddaşlarımızla unudulmaz görüşdən qayıdarkən Vidadi müəllim idarə etdiyi avtomobilinin radioqəbuledicisini işə salır. Sanki müğənni qız da efirdə yanıqlı bir səslə "ilk bahar çağında, İsa bulağında, Araz qırağında, Sonalı göllərdə" kimləri isə axtarır. Bu gün həyatın sərt rüzgarı çox şeyi, o cümlədən müğənni qızın da, bizim də axtardıqlarımızın ünvanlarını 23-24 ildir ki, dəyişsə də, onların yurd sevgisini, inamını, Qarabağlı adını dəyişə bilməyib...**

**Mahmud Qacar,**
**şair-publisist**